# ADRİANO ÇELENTANO

## Estrada və kinoda ifası ilə tamaşaçıları ovsunlayan müğənni, aktyor və rejissor

**Məşhur italyan müğənnisi və kinoaktyoru Adriano Çelentanonun adı vətəninin sərhədlərini aşaraq, ona böyük populyarlıq və tamaşaçı sevgisi qazandırıb. Dünyanın hər hansı bir şəhərinin estrada səhnəsində çıxış edirsə etsin, minlərlə dinləyici ulduz müğənni ilə canlı ünsiyyətdə olmaq, onun ecazkar səsini eşitməyi özü üçün xoşbəxtlik sayır. A.Çelentano istedadlı müğənni olmaqla bərabər, eyni zamanda bir neçə komediya və melodrama janrlı kinofilmlərin aktyoru və rejissoru kimi də məşhurlaşıb.**

Adriano çəkildiyi filmlərdə oxumur. O, daha çox yumor, gözəl plastik və ekssentrik hərəkətlərlə təkrarolunmaz, özünəməxsus ifa tərzini biruzə verirdi; ”Serafino” (1968, rej. P.Cermi), ”Yalan” (1976, rej. S.Korbuççi), ”İnadkarın ram edilməsi” (1981) və digər filmlərdə bunu müşahidə etmək olar. Qeyri-adi istedad sahibi olan ifaçının yaradıcılığında nəzərə çarpacaq dərəcədə neorealizm ənənələri, komediya və italyan folklorunun nümunələrinin də olması özünü göstərir. Bundan əlavə müasir məişət mövzusunu, həmçinin estrada və rəqs ritmlərini, bəzən də bir-birinə zidd olan fikirləri birləşdirməsi hiss olunur.

A.Çelentanonun ən yaxşı mahnılarından sayılan ”Qlyuk məhəlləsindən olan gənc” adlanır. Bu mahnıda xoşbəxt həyat tapmaq arzusu ilə əyalətdən şəhərə gələn cavan oğlanın həyatından bəhs edilir. Adriano bu mahnıda demək olar, öz tərcümeyi-halını təsvir edib.

A.Çelentano 1938 -ci il yanvarın 6-da Milanda doğulub. Ailədə iki bacısı və bir qardaşı vardı. 13 yaşlı Adriano iş tapmaq ümidilə bir müddət şəhərin küçələrini dolaşır. Əvvəlcə dəllək şagirdi, sonra isə saatsaz işləyir. Əgər bir təsadüfi hadisə olmasaydı, kim bilir, yeniyetmənin taleyi hansı səmtə dəyişəcəkdi.

1956-cı ildə bir filmin çəkilişi zamanı epizodların birində Çelentanoya amerikalı aktyor Cerri Levisi əvəz etmək təklif olunur. Gözlənilməz təklif onun aktyorluq karyerasının başlanğıcı oldu. Adrianonun kinoya gəlişi xoşbəxt təsadüf olsa da, ancaq onun istedadlı aktyor olması heç də təsadüfi deyildi. Bu, onun taleyi, alın yazısı idi. Xarici görünüşü çox baxımlı, musiqi duyumu yaxşı olan aktyorun ifaçılıq məharəti də tanrı vergisi sayıla bilər. Bundan əlavə, onun plastik, bəzən Çaplinsayağı hərəkətləri çox maraqlı alınırdı. Ritmi hissetmə qabiliyyəti isə son dərəcə qəribə idi.

### *Oxuduğu mahnılar ona şöhrət gətirirdi*

Çelentano musiqisiz yaşaya bilməzdi. O, ilk müvəffəqiyyəti də 17 yaşında olarkən rok-n rol festivalında iştirak etməklə qazanır. 1959-cu ildə isə oxuduğu ”Sənin öpüşün bəxt ulduzumdur” mahnısı Adrianoya populyarlıq gətirir. Üç ildən sonra San-Remo festivalında ”24 min busə” nəğməsini oxumaqla Çelentanoya tamaşaçı məhəbbəti daha da artır. Həmin vaxtdan etibarən ifa etdiyi mahnıların sözlərini də yazan Adrianonun uğurları gündən-günə çoxalırdı. Qəzet və jurnallar onun şəkillərini çap edir, mütəxəssislər də onun vokal keyfiyyətlərinə yüksək qiymət verirdilər. Onun kinoya gəlişi də 1959-cu ildə oldu. Müğənninin şəklini qəzetdə görən Federiko Fellini Çelentanonu ”Şirin həyat” filminə çəkilməyə dəvət etdi. Həmin vaxtdan Adriano təkcə estradanın yox, həm də böyük ekranın ulduzu sayılırdı. Sübut üçün təkcə bir faktı göstərmək olar. Çelentano ilə eyni filmə çəkilmək üçün Hollivudun aktrisası Rosselle Cardini 200 nəfərdən ibarət müsabiqənin qalibi oldu.



A.Çelentanonun sözlərinə görə, çəkiliş zamanı sərbəst olmağı və aktyorluq imkanlarının açılmasına ona digər italyan rejissoru Pyetro Cermi öyrətmişdi: ”Onun məsləhətləri çox faydalı oldu. 60-cı illərin sonunda P.Cermi məni ”Serafino” filmində baş rola çəkdi.”

### *”Yuppi-Du” filmi rejissordan ağır zəhmət tələb etdi*

Demək lazımdır ki, ”Serafino”dan əvvəl Çelentano özünün ilk rejissor işi olan ”Milanda superqarət” filminin tamaşaçılara təqdim etdi. Bu barədə Adriano sonra belə demişdi: Bu ekran əsəri bir rejissor kimi sınaq filmim oldu. Mən daha vacib saydığım ”Yuppi-Du” filminin adını çəkmək istərdim. Çünki həmin filmdə mən çox ağır ”yükü” çiynimdə daşımalı oldum, quruluşçu rejissor, baş rolun ifaçısı, həm də ssenarist və müğənni kimi çıxış etmişdim. Aktyorluq sərbəstliyini isə mən P.Cermidən öyrənmişdim. Yeri gəlmişkən, Çelentanonun çəkildiyi digər filmləri də qeyd etmək lazımdır; ”Qrand otel”, ”Ekselsior”, ”Binqo-Bonqo”, ”Məxmər əllər”, ”As” və ”Ağılsız Ceppo”.

Müxbirlərin əksəriyyəti Çelentanodan narazılıq edirdi. Çünki o, müsahibə verməyi xoşlamırdı. Çox nadir hallarda onunla dialoqa girmək mümkündür. Son illər daha filmlərə də çəkilmir. Boş vaxtlarında təzə nəğmələri məşq edir və idmanla məşğul olur. Əgər ”İnadkarın ram edilməsi” filmini yada salsaq, görərik ki, Adriano tennis oynayır, velosiped sürür və basketbol matçında qalib gəlir. Onun tərəf müqabili gözəl aktrisa Ornella Muti nə qədər çalışsa da, inadkarı ram edə bilmir. Bu kinolent çox məzəli, müsbət emosiyalar və xoş ovqat yaradan filmdir. Asudə saatlarında əsl italiyalı kimi Çelentano da futbol matçını canlı izləmək üçün stadiona gedir.

### *Çelentano idmanı çox sevirdi*

Adrianonun həyatında idmanın hansı rol oynadığını bilmək üçün İtaliyanın ”Qadzetta dello sport” qəzetinin jurnalistləri onu redaksiyaya dəvət edərək sorğu-suala tuturlar. Həmin söhbətin oxucular üçün də maraqlı olmasını nəzərə alaraq, diqaloqun bir hissəsini onların diqqətinə çatdırmağı lazım bildik.

**-Deyirlər sağlam bədəndə sağlam ruh olur.**

-Doğrudur, insan gərək sağlamlığının qayğısına qalsın, pis vərdişlərdən uzaq dursun, idmanla məşğul olsun və dünyagörüşünü artırmaq üçün mütaliə etsin. Axı, həyatda hər şey harmoniyada olmalıdır.

**-Bəs, Çelentano üçün harmoniya nə deməkdir?**

-Əgər bir sözlə desəm, bu, məhəbbətdir. Elmdə kəşflər etməyə çalışsaq da, təbiətə, mədəniyyətə, tarixə və insanlara olan məhəbbəti gərək unutmayaq. Əminliklə deyə bilərəm, sevən adam həmişə müharibənin və zorakılığın əleyhinə olacaq.

**-İdmana azarkeşliyiniz nədən başladı?**

-Mən azarkeş kimi doğulmuşam. Körpə vaxtımda uşaq arabasında yatanda, əynimdə İtaliya milli komandasının mavi rəngli köynəyi vardı.

**-Yeniyetmə yaşına çatanda Qluyk küçəsində top qovurduz.**

-Bəli, uşaq yaşlarından mən ancaq futbolla məşğul olmuşam. Bir dəfə məşqçilər ”İnter” klubunun yeniyetmələr heyətinə istedadlı və perspektivli futbolçular yığmaq üçün müsabiqə-baxış keçirirdilər. Yaxşı yadımdadır, bizi tamaşaçı ilə dolu olan böyük stadiona dəvət etmişdilər. Mən rəqibin müdafiə xəttini keçmək üçün var gücümlə çalışırdım.

**-Nəticədə sizi komandaya qəbul etdilər?**

-Əlbəttə, mən bununla çox fəxr edirdim.

**-Siz deyəsən, velosiped idmanı ilə də maraqlanırdız?**

-Düzdür, bu, mənim böyük ehtirasla sevdiyim ikinci idman növüdür. Velosiped yarışlarını heç vaxt qaçırmırdım. Yarış başlamamışdan əvvəl gəlib rahat yer tapıb, idmançıların mübarizəsini səbirsizliklə gözləyirdim. Velosipedçi Bartaliyə azarkeşlik edirdim. O, tribuna qarşısından keçəndə mən əllərimi qaldırıb qışqırırdım, uduzanda isə bəzən ağlayırdım. Bartali, Koppi, Bassalakva kimi idmançıların nailiyyətlərinə çox sevinirdim. Velosiped yarışları mənim üçün ən maraqlı idman növü olaraq qalır.

**-Yəqin ki, indi də idman yarışlarını izləyirsiniz?**

-Bəs necə! Mən hətta konsertdə olarkən antrakt zamanı, həmçinin kino çəkilişində fasilə veriləndə, prinsipial oyunun nəticəsini bilmək üçün televizora tərəf qaçırdım.

**-Hansı komandaya daha çox azarkeşlik edirsiz?**

-Əlbəttə ”İnter”ə, axı, o, mənə doğma olan komandadır.

**-Əgər sizə dünyada məşhur olan bir futbolçunun xatirəsini əbədiləşdirmək təklif olunsaydı, kimin adını çəkərdiniz?**

-Hollandiyalı Kruiffi, qeyri-adi futbolçunu və təkrarolunmaz fərdi.

**-Futbolun tarixi ərzində ən məşhur ”cütlüyün” adını deyə bilərsinizmi?**

-Əgər onlar eyni komandada oynaya bilsəydilər deyərdim, braziliyalı Pele hollandiyalı Kruiff.

**Həsən Tağıyev**